# Kredo

3 dekabr / 2020

## ŞAİRİN YURDUNA SƏYAHƏT

Salam olsun sənə, xoş gördük, ustad,
Hələ yolundadır zaman, kainat.
Bilmirəm o üzdə dünya necədi,
Burda qəlbimizi sıxır bu həyat.

Doludur kasalar şərbət adına,
Bəs elər baxasan ancaq dadına.
Araya soyuqluq salıb zəmanə
Könül həmdəm olmaz öz fəryadına.

Yandırım ruhumda sözü doyunca,
Təpim gözlərimə közü doyunca.
Üzüm Araz boyu balıq donunda,
Baxım sahillərə gözü doyunca.

Qalayım canımı ocağa çatım,
Köz olum, qorlanım qucağa çatım.
Bir səhər küləyi aparsın məni
Viranə yurdumda bucağa çatım.

Ey ustad, bilirəm bizdən küskünsən,
Yerindən, yurdundan hələ üzgünsən.
Ruhunla dünyanın azad bülbülü,
Cisminlə məzarda axı köçkünsən.

Çəkirəm yükünü dərdin, qəhərin,
Ümid qapısında günün, səhərin.
Ey ustad, ruhuna tapındım ki, mən
Uçam göylərində əsir yerlərin.

Burda Şah İsmayıl igidlər seçib,
Burda tarix özü daşlara köçüb.
Əqidə yolunda, inam yolunda
Oğullar canından, başından keçib.

Laçının tarixi onun varıdır,
Yazsam, durnalanan söz qatarıdır.
Zeyvə kəndindəki Kafir qalası
Babək zamanının yadigarıdır.

Laçın hünər tağı - yazaq, düşübdü,
Bəlkə, bir yuxudu - yozaq, düşübdü.
Bayquşlar dağ-daşda yuva quralı
Qartallar zirvədən uzaq düşübdü.

Hocazda mağara məbəd - yadigar,
Cimcimli kəndində Malik Əjdər var.
Kafir qalasının şöhrət ünvanı
Qarıqışlaq adı dastan danışar.

Əmanətdi Həmzə Sultan sarayı,
Ağoğlan məbədi, Ağoğlan çayı.
Sultan Baba türbəsinə baş əyim,
Hər misra ruhumdan ehtiram payı.

Gərəkdir şairi bəxt də yarıda,
Keçdim qayaları, çınqılları da.
Mıxtökən yol verdi ilham atıma,
Qalmadı istəyim yolda, yarıda.

Dağlar dilə gəldi, haraya gələk,
Yeriyək, qan süzən yaraya gələk.
Minkənddən min oğul qaya dilində,
Deyir çağır bizi, sıraya gələk.

Dayanma, ey ürək, hələ ki, söz var,
Hələ ki, qabaqda təzə bir yaz var.
Hələ zirvəsinə hər əl yetməyən,
Qarşıda göydələn Qızılboğaz var.

Hər bulaq, hər cığır tez elə - deyir,
Laçın dağlarına söz ələ - deyir.
Zabux körpüsündə tarixin səsi
Yaddaş kitabını təzələ - deyir.

Laçın dağlarının dili üzülüb,
Bağları talanıb - gülü üzülüb.
Ustadın öz kəndi - doğma köyün də
Bəxtəvər günlərdən əli üzülüb.

Əhmədli bir eldi - tarixi, yaşı,
Əhmədli bir kənddi - daşın yaddaşı.
Ustadın nəfəsi, izi yaşayan
Əhmədli sirr kənddi - sözün sirdaşı.

Keçdiyim zirvələr öz vüqarımdı,
Xəyalı yandıran köz qübarımdı.
Qəlbimin qanıdı sözə rəng verən,
Həkəri çağlayan misralarımdı.

Çağırdım Kürdoğlu ruhunu, gələ,
Hər misram sevinə, hər sözüm gülə.
Yol aça Laçınlı duyğularıma,
Vüsal qismət ola bülbülə, gülə.

İstək olsa, ürək çəkər hər nə var,
Keçər coşğun Araz, Dəli Kür nə var...
Yaş gəldikcə, öz-özünə danışar
Bir ömürdə gizli qalan sirr nə var.

Şair, ötüb keçən çağlara baxdım,
Sözünü yandıran ağlara baxdım.
Yayı da, qışı da gözəl Bərdənin
Dərdli gözlərindən dağlara baxdım.

Şairin yurdunda bir viranə var,
Ruhunda sərgəştə bir divanə var.
Hardasa bir qızıl qəfəsdə dustaq,
"Murad quşu" adlı bir əfsanə var.

Sözümə dedim; yeri, Gəz göyü, axtar yeri.
Harda görsən, məlhəm ol Dərd yeri, kədər yeri.

Dərd sinəni deşə, bax. Bir qıcanmış dişə bax:
Quzulayan dərdimin Sərdəni var, döşə bax.

Yaz gəlməsə, gül ötər. Dağlayar, gül-gül ötər;
Şair doğulan evin Yerində bülbül ötər.

Bir dəmirçi Gavə yox, Baba yollu nəvə yox:
Dəmir tikan çeynəyən Dəmir ağız dəvə yox.

Nə əkmişdim, nə dərdim. Gülüm gülsə, nə dərdim?
Bu torpaq gülüm olsa, Nə kədərim, nə dərdim?

Dağlayar yana-yana Çağlayar yana-yana:
Azərbaycan gözlərim Ağlayar yana-yana.

And yeri, ocaq yeri, ərkimiz Azərbaycan.
Üzümüzə tutmağa görkümüz Azərbaycan.
Bizi yığar bir yerə - bayrağımız, himnimiz,
Dilimizdə oxunan türkümüz Azərbaycan.

Ərənlərin ruhuyla hər daşı baş-başadı,
Qayalara söykənib qalalar da yaşadı.
Çıraq qala, Girdmandı, Əsgərandı, Şuşadı,
Bürcümüz, Əlincəmiz, Ərkimiz Azərbaycan.

Yaralı Qarabağa qaratorpaq, yer deyən
Qan qırmızı üfüqə dan yeridir, gör - deyən.
Biz qoruya bilmədik, gələcəyə ver deyən
Vətən sarı qorxumuz, hürkümüz Azərbaycan.

"Papaq aldı qaç" deyən oğruya da "tut" deyər,
Yalana doğru deyən doğruya da "ud" deyər.
Başsız papaq dil açıb sahibinə "küt" deyər,
Başımız, papağımız, börkümüz Azərbaycan.

Dağıldı sərvətimiz, talandı, torpaq getdi,
Yel döydü ağacları, töküldü yarpaq getdi.
Məcaz, təşbeh tapılmaz sözümüz çılpaq getdi,
Abır, ismət paltarı, kürkümüz Azərbaycan.

Bircə damın içində göy çadırı üstümüz
Vətən özü yanır ki, çəkilməsin istimiz.
Yandıqca nəfəsimiz - burum-burum tüstümüz,
Göy üzündə havamız, bürkümüz Azərbaycan.

Xələflinin dərdini kim deyər, hara bilsin?
Açılsın can kitabı sinədə yara bilsin.
Sənə xəyanət edən hər üzü qara bilsin,
Çarəmiz, ümidimiz, türkümüz Azərbaycan.

* * *

**Yurdumuz Azərbaycan, Ordumuz Azərbaycan;**
**Axır bir gün ulayar Qurdumuz Azərbaycan!**

*Əli Rza XƏLƏFLİ*
*("Bir ayrılıq odu var" (2018) poema-eposundan bir hissə)*